BAKI
SLAVYAN
UNİVERSİTETİ

# Azərbaycanşünaslıq və Slavyan tədqiqatları” Elmi-Tədqiqat Laboratoriyası

20-11-2024

“Azərbaycanşünaslıq və Slavyan tədqiqatları” elmi-tədqiqat laboratoriyası 22 noyabr 2022-ci il tarixindən fəaliyyət göstərir.

Azərbaycançılıq və Azərbaycanşünaslıq ideologiyasının xalqımızın tarixi keçmişini, mədəniyyətini, adət-ənənələrini, bölgələrin tarixi-coğrafiyası, ədəbiyyatını, incəsənətini, dilini, hüquqlarını, fəlsəfəsini və ideologiyasının hərtərəfli öyrənilməsini və təbliğini, mənəvi-mədəni sərvətlərimizin yaşadılması, yeni milli dəyərlərimizin inkişaf etdirilməsi Azərbaycanşünaslığın başlıca istiqamətini müəyyənləşdirir.

“Azərbaycanşünaslıq və Slavyan tədqiqatları” elmi-tədqiqat laboratoriyasının əsas məqsədi tələbə və əməkdaşların müvafiq ölkələr və istiqamətlər üzrə elmi maraqları təmin etmək, azərbaycançılıq ideyalarının təbliği məqsədi ilə Slavyan ölkələrinin aparıcı ali məktəblərində yaradılmış Azərbaycan dili və mədəniyyəti mərkəzlərinin fəaliyyətini tənzimləmək, onlara zəruri elmi-metodik dəstək göstərməklə, universitetin beynəlxalq əlaqələrinin genişlənməsi və dərinləşməsi işinə dəstək olmaqdır.